# Sentyabr konfranslarının plenar müşavirələri

## Ötən dərs ilinin yekunlarına dair hesabat məruzələri dinlənilib





Sentyabrın 2-də Mingəçevir, Quba və Şamaxı təhsil işçilərinin sentyabr konfransının plenar müşavirələri keçirilib.

Mingəçevir şəhər Dövlət Dram Teatrında baş tutan sentyabr konfransında Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Mingəçevir şəhər, Yevlax və Ağdaş rayon təhsil şöbələrinin müdirləri, məktəb direktorları və təhsil işçiləri iştirak ediblər.

Təhsil nazirinin müavini M.Vəliyeva ötən dərs ilinin yekunları, əldə olunan nailiyyətlər və perspektiv məsələlərdən bəhs edib, ümumi təhsilin müxtəlif istiqamətləri üzrə görülmüş işlərə diqqət çəkib. Nazir müavini 2019-2020-ci tədris ili üçün əsas prioritet məsələlərdən söz açıb, bununla bağlı tapşırıq və tövsiyələrini verib.

Konfransda iştirak edən Mingəçevir şəhər, Yevlax və Ağdaş rayonlarının təhsil şöbələrinin müdirləri ötən tədris ilinə dair hesabat məruzəsi ilə çıxış ediblər.

Sonra yeni tədris ilinin prioritet məsələləri haqqında fikir mübadiləsi aparılıb.

***

Quba şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Quba, Qusar və Xaçmaz rayonlarının təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsi keçirilib.

Müşavirədə Təhsil Nazirliyinin aparat rəhbəri Muxtar Məmmədov, Quba, Qusar və Xaçmaz rayonlarının təhsil şöbələrinin rəhbərləri və əməkdaşları, məktəb direktorları, direktor müavinləri, məktəb psixoloqları və təhsil işçiləri iştirak ediblər.

Konfransda müvafiq rayon təhsil şöbələrinin müdirləri 2018-2019-cu tədris ili ərzində görülən işlər və qarşıda duran məsələlər barədə hesabat məruzəsi ilə çıxış ediblər.

Təhsil Nazirliyinin aparat rəhbəri M.Məmmədov çıxış edərək təhsil sahəsində həyata keçirilən yeniliklər və nəzərdə tutulan hədəflərdən danışıb.

M.Məmmədov qarşıda duran vəzifələrlə bağlı tapşırıq və tövsiyələri konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Konfrans növbəti tədris ili ilə bağlı müzakirələrlə davam etdirilib.

***

Şamaxı şəhər Mədəniyyət mərkəzində Şamaxı, İsmayıllı və Qobustan rayonlarının təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsi təşkil olunub.

Konfransda Təhsil Nazirliyinin aparat rəhbərinin müavini Fərzəli Qədirov, sözügedən rayonların təhsil şöbələrinin müdirləri, məktəb direktorları və təhsil işçiləri iştirak ediblər.

Əvvəlcə Şamaxı, İsmayıllı və Qobustan rayonlarının təhsil şöbələrinin müdirləri 2018-2019-cu tədris ilinin yekunları ilə əlaqədar hesabat məruzəsi ilə çıxış ediblər.

Daha sonra Təhsil Nazirliyinin aparat rəhbərinin müavini F.Qədirov təhsil şöbələrinin hesabatlarına öz münasibətini bildirib. Qeyd edilən rayonlar üzrə təhsil şöbələri və təhsil müəssisələrinin ötən dərs ilində keyfiyyət göstəricilərinin müqayisəli təhlilini nəzərə çatdıran aparat rəhbərinin müavini təhsil sahəsində əldə edilən nailiyyətlər barədə danışıb.

F.Qədirov yeni dərs ilində yerli təhsili idarəetmə orqanları və təhsil müəssisələri qarşısında duran vəzifələr, eləcə də ümumi təhsilin prioritet istiqamətlərini diqqətə çatdırıb.

Müşavirə müzakirələrlə davam etdirilib.

***

Sentyabrın 3-də Siyəzən, Göyçay, Bərdə və Zərdab rayonlarında təhsil işçilərinin sentyabr konfransının plenar müşavirələri keçirilib.

Bərdə Rayon İcra Hakimiyyətinin iclas zalında keçirilən Bərdə, Tərtər və Ağdam rayon təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsində Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev, sözügedən rayonların təhsil şöbələrinin müdirləri və təhsil işçiləri iştirak ediblər.

Müşavirədə hər üç rayonun 2018-2019-cu tədris ilinə dair hesabat məruzəsi təqdim edilib.

Daha sonra M.Vəliyeva çıxış edərək hesabatlara öz münasibətini bildirib. Nazir müavini qəbul imtahanlarında zəif nəticə göstərən ümumtəhsil məktəblərinin fəaliyyətinin yaxşılaşdırılmasının vacibliyini vurğulayıb. Məktəbdaxili qiymətləndirmənin obyektiv aparılmasının qəbul imtahanı nəticələrinə təsir göstərdiyini bildirən M.Vəliyeva məktəblərdə diaqnostik və formativ qiymətləndirməyə nəzarətin artırılmasını qeyd edib.

M.Vəliyeva çıxışının sonunda təhsil işçilərinə 2019-2020-ci dərs ili ilə bağlı tövsiyələrini verib və uğurlar arzulayıb.

Konfrans müzakirələrlə davam etdirilib.

***

Siyəzən şəhər Mədəniyyət Mərkəzində Şabran, Siyəzən və Xızı rayonlarının təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsi keçirilib. Müşavirədə Təhsil Nazirliyinin aparat rəhbəri Muxtar Məmmədov, Şabran, Siyəzən və Xızı rayonlarının təhsil şöbələrinin müdirləri, məktəb direktorları və təhsil işçiləri iştirak ediblər.

Konfransda sözügedən rayonların təhsil şöbələrinin müdirləri ötən tədris ilinə dair hesabatla çıxış ediblər.

Təhsil Nazirliyinin aparat rəhbəri M.Məmmədov çıxış edərək hesabatlara öz münasibətini bildirib. M.Məmmədov təhsil sahəsində bu ildən tətbiq olunan yeniliklər, perspektiv məsələlərdən bəhs edib. Aparat rəhbəri bölgələrdə yeni açılması nəzərdə tutulan lisey siniflərə şagirdlərin cəlbi və valideynlərin bu mövzuda məlumatlandırılması istiqamətində tövsiyələrini verib.

Hər üç rayonun təhsil işçilərini olimpiada hərəkatında fəal iştirak etməyə səsləyən aparat rəhbəri bütün təhsil işçilərinə yeni tədris ilində uğurlar arzulayıb.

Sonda yeni tədris ilinin prioritet məsələləri haqqında fikir mübadiləsi aparılıb, konfrans iştirakçılarını maraqlandıran məsələlərə aydınlıq gətirilib.

***

Göyçay rayon Heydər Əliyev Mərkəzində Göyçay, Ucar və Ağsu rayonlarının təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsi keçirilib.

Müşavirədə Təhsil Nazirliyinin aparat rəhbərinin müavini Fərzəli Qədirov, sözügedən rayonların təhsil şöbələrinin müdirləri, məktəb direktorları və təhsil işçiləri iştirak ediblər.

Əvvəlcə hər üç rayonun təhsil şöbələrinin müdirləri 2018-2019-cu tədris ilinin yekunları ilə əlaqədar hesabat məruzəsi ilə çıxış ediblər.

Aparat rəhbərinin müavini F.Qədirov çıxış edərək hesabatları təhlil edib, rəy və tövsiyələrini bildirib. F.Qədirov ölkə Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi diqqət və qayğısı nəticəsində son illərdə təhsil sahəsində görülən işlər, əldə edilən nailiyyətlər, o cümlədən konfransda iştirak edən rayonların keyfiyyət göstəriciləri barədə məlumat verib.

Aparat rəhbərinin müavini hesabatlarda səsləndirilən təkliflərə rəy bildirib, yeni tədris ilində əsas fəaliyyət istiqamətləri, qarşıda duran hədəfləri diqqətə çatdırıb.

Sonda konfrans iştirakçılarının rəy, təklif, eyni zamanda sorğuları dinlənilib və cavablandırılıb.

***

Zərdab rayon Heydər Əliyev Mərkəzində Zərdab, Ağcabədi və Laçın rayon təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsi keçirilib.

Müşavirədə Təhsil Nazirliyinin baş məsləhətçisi Əhliyət Adıgözəlov, hər üç rayonun təhsil şöbələrinin müdirləri, ümumi təhsil müəssisələrinin rəhbərləri və təhsil işçiləri iştirak ediblər.

Əvvəlcə rayonların təhsil şöbələrinin müdirləri hesabat məruzəsi ilə çıxış edib, təkliflərini bildiriblər.

Təhsil Nazirliyinin baş məsləhətçisi Ə.Adıgözəlov çıxış edərək hesabatları müqayisəli təhlil edib, təklif və rəylərini verib. Ə.Adıgözəlov rayonların olimpiada uğurlarından, eləcə də qəbul imtahanı nəticələrindən danışıb. Nazirliyin baş məsləhətçisi yeni tədris ilinin prioritet istiqamətləri barədə məlumat verib.

Təhsil Nazirliyinin qəbul etdiyi normativ hüquqi sənədlər barədə məlumat konfrans iştirakçılarının diqqətinə çatdırılıb.

Sonda yeni tədris ilinin prioritet məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

***

Sentyabrın 4-də Şirvan şəhəri, Beyləqan, Qax və Sabirabad rayonlarında təhsil işçilərinin sentyabr konfransının plenar müşavirələri keçirilib.

Qax şəhər 2 nömrəli məktəb-liseyin akt zalında keçirilən Qax, Zaqatala və Balakən rayonlarının təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsində Təhsil Nazirliyinin şöbə müdirinin müavini Əsgər Quliyev, Qax Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəfa Heydərova, sözügedən rayonların təhsil şöbələrinin müdirləri və əməkdaşları, ümumi təhsil müəssisələrinin rəhbərləri, müəllimlər və praktik psixoloqlar iştirak ediblər.

Müşavirədə hər üç rayonun 2018-2019-cu tədris ilinə dair hesabat məruzəsi təqdim edilib.

Daha sonra Təhsil Nazirliyinin şöbə müdirinin müavini Ə.Quliyev hesabatlara öz münasibətini bildirib. Ə.Quliyev çıxışında buraxılış və qəbul imtahanlarının nəticələri, şagirdləri zəif nəticə göstərən ümumtəhsil məktəblərinin fəaliyyətinin yaxşılaşdırılması, təhsil sahəsində tətbiq olunan yeniliklərin təhsil ictimaiyyətinə çatdırılması kimi məsələlərə toxunub. Təmayülləşmənin tətbiqinin, bu işə diqqət və nəzarətin artırılmasının vacibliyini xüsusi vurğulayan şöbə müdirinin müavini təmayül siniflərini bitirən şagirdlərin imtahan nəticələrini müqayisəli şəkildə təhlil edib.

Ə.Quliyev çıxışının sonunda təhsil işçilərinə 2019-2020-ci dərs ili ilə bağlı tövsiyələrini verib və uğurlar arzulayıb.

Konfrans müzakirələrlə davam etdirilib, hər üç rayonun təhsil işçilərini maraqlandıran suallar cavablandırılıb.

***

Sabirabad şəhər Heydər Əliyev Mərkəzində Sabirabad, Saatlı və İmişli rayonlarının təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsi keçirilib.

Müşavirədə Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər şöbəsinin sektor müdiri Firidun Həmzəyev, Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siracəddin Cabbarov, Sabirabad, Saatlı və İmişli rayonlarının təhsil şöbələrinin müdirləri, məktəb direktorları və təhsil işçiləri iştirak ediblər.

Konfransda sözügedən rayonların təhsil şöbələrinin müdirləri 2018-2019-cu tədris ilinə dair hesabatla geniş çıxış ediblər.

Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin sektor müdiri F.Həmzəyev çıxış edərək hesabatlara öz münasibətini bildirib. Sektor müdiri təhsil sahəsində bu ildən tətbiq olunan yeniliklər və perspektiv məsələlərdən danışıb. O, bölgələrdə yeni açılması nəzərdə tutulan lisey siniflərə uşaqların cəlbi, eləcə də məktəbəhazırlıq qruplarına qəbulla bağlı tövsiyələrini verib.

F.Həmzəyev çıxışının sonunda təhsil işçilərinə yeni tədris ilində uğurlar arzulayıb.

Toplantıda 2019-2020-ci tədris ilinin prioritet məsələləri haqqında fikir mübadiləsi aparılıb.

***

Beyləqan rayon Heydər Əliyev Mərkəzində Beyləqan, Füzuli və Xocavənd rayon təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsi keçirilib.

Konfransda Təhsil Nazirliyinin baş məsləhətçisi Əhliyət Adıgözəlov, Beyləqan, Füzuli və Xocavənd rayonlarının təhsil şöbələrinin müdirləri, məktəb direktorları və təhsil işçiləri iştirak ediblər.

Hər üç rayonun təhsil şöbələrinin müdirləri hesabat məruzəsi ilə çıxış ediblər.

Daha sonra Təhsil Nazirliyinin baş məsləhətçisi Ə.Adıgözəlov hesabatlara öz münasibətini bildirib. O, ötən tədris ilində görülən işlərdən danışıb, yeni tədris ilinin əsas fəaliyyət istiqamətlərini, qarşıda duran hədəfləri konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Ə.Adıgözəlov 2019-2020-ci tədris ilində görüləcək işlərlə bağlı təhsil işçilərinə tövsiyələrini verib, hər birinə uğurlar arzulayıb.

Sonda konfrans iştirakçılarının rəy, təklif və sorğuları dinlənilib və cavablandırılıb.

***

Şirvan şəhər Gənclər Evində Şirvan şəhəri, Hacıqabul və Kürdəmir rayon təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsi keçirilib.

Müşavirədə Təhsil Nazirliyinin baş məsləhətçisi Rövşən Ağayev, sözügedən rayonların təhsil şöbələrinin müdirləri, məktəb direktorları və təhsil işçiləri iştirak ediblər.

Hər üç rayonun təhsil şöbələrinin müdirləri 2018-2019-cu dərs ilinin yekunları və qarşıda duran vəzifələr mövzusunda hesabatla çıxış ediblər.

Daha sonra Təhsil Nazirliyinin baş məsləhətçisi R.Ağayev hesabatlara münasibətini bildirib, konfrans iştirakçılarının rəy və təkliflərini dinləyib.

Sonda yeni tədris ilinin prioritet məsələləri haqqında fikir mübadiləsi aparılıb, konfrans iştirakçılarını maraqlandıran məsələlərə aydınlıq gətirilib və konfransın qərar layihəsi hazırlanıb.

***

Sentyabrın 5-də Gəncə, Şəki, Biləsuvar və Cəlilabadda təhsil işçilərinin sentyabr konfransının plenar müşavirələri keçirilib.

Cəlilabad rayon Heydər Əliyev Mərkəzində keçirilən Cəlilabad, Masallı və Yardımlı rayonlarının təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsində Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Aydın Əhmədov, Cəlilabad Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elnarə Həsənova, sözügedən rayonların təhsil şöbələrinin müdirləri və əməkdaşları, ümumi təhsil müəssisələrinin rəhbərləri, müəllimlər və praktik psixoloqlar iştirak ediblər.

Müşavirədə hər üç rayonun 2018-2019-cu tədris ilinə dair hesabat məruzəsi təqdim edilib.

Daha sonra Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Aydın Əhmədov çıxış edərək hesabatlara öz münasibətini bildirib. A.Əhmədov buraxılış və qəbul imtahanlarının nəticələri, təhsil sahəsində tətbiq olunan yeniliklərin təhsil ictimaiyyətinə çatdırılması kimi məsələlərə toxunub. O, ümumtəhsil məktəblərinin fəaliyyətinin yaxşılaşdırılması ilə bağlı məsələləri konfrans iştirakçılarının diqqətinə çatdırıb.

2019-2020-ci tədris ilinin əsas prioritetlərindən söz açan A.Əhmədov təhsil işçilərinə yeni dərs ili ilə bağlı tövsiyələrini verib və uğurlar arzulayıb.

Konfrans müzakirələrlə davam etdirilib, hər üç rayonun təhsil işçilərini maraqlandıran suallar cavablandırılıb.

***

Gəncə Şəhər Heydər Əliyev Mərkəzində Gəncə şəhər, Göygöl və Kəlbəcər rayon təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsi keçirilib.

Plenar müşavirədə Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri, Təhsil İnstitutunun direktoru Emin Əmrullayev, Gəncə şəhər, Göygöl və Kəlbəcər rayonlarının təhsil şöbələrinin müdirləri, ümumi təhsil müəssisələrinin rəhbərləri, müəllimlər və praktik psixoloqlar iştirak ediblər.

Konfrans Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Hər üç rayonun təhsil şöbələrinin müdirləri 2018-2019-cu dərs ilinin yekunları və qarşıda duran vəzifələr mövzusunda hesabatla çıxış ediblər.

Daha sonra Təhslilin inkişafı proqramları şöbəsinin müdiri Emin Əmrullayev hesabatlara öz münasibətini bildirib. E.Əmrullayev son dövrlər təhsildə qazanılan nailiyyətlər, əsaslı dəyişikliklər və həlli vacib məsələlər barədə danışıb, tədrisin inkişafının bütün təhsil işçiləri üçün əsas məqsəd olduğunu bildirib. O, öz çıxışında bölgələrdə yeni açılması nəzərdə tutulan lisey siniflər barədə geniş məlumat verib.

E.Əmrullayev 2019-2020-ci tədris ilində görüləcək işlərlə bağlı təhsil işçilərinə tövsiyələrini verib, hər birinə uğurlar arzulayıb.

Sonda konfrans iştirakçılarının rəy, təklif və sorğuları dinlənilib və cavablandırılıb.

***

Şəki, Qəbələ və Oğuz təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsi keçirilib.

Müşavirədə Təhsil Nazirliyinin şöbə müdirinin müavini Əsgər Quliyev, Qəbələ Şəhər İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova, Şəki, Qəbələ şəhər və Oğuz rayon təhsil şöbələrinin müdirləri, məktəb direktorları və təhsil işçiləri iştirak ediblər.

Konfransda iştirak edən Şəki, Qəbələ şəhərlərinin və Oğuz rayonunun təhsil şöbələrinin müdirləri ötən tədris ilinə dair hesabat məruzəsi ilə çıxış ediblər.

Təhsil Nazirliyinin şöbə müdirinin müavini Ə.Quliyev çıxış edərək hesabatları təhlil edib, dövlətin təhsil sahəsinə diqqət və qayğısından, ötən tədris ilində qazanılan uğurlardan, qarşıda duran vəzifələrdən ətraflı bəhs edib. O, bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan təhsil siyasəti hazırda ölkə Prezidenti İlham Əliyev və Birinci vitse-prezidentin diqqət və qayğısı sayəsində uğurla, eləcə də sistemli şəkildə həyata keçirilir.

Ə.Quliyev ümumi təhsilin prioritet istiqamətlərini diqqətə çatdırıb, təhsil işçilərinə yeni tədris ilində uğurlar arzulayıb.

Sonra yeni tədris ilinin prioritet məsələləri haqqında fikir mübadiləsi aparılıb.

***

Biləsuvar, Salyan, Neftçala və Cəbrayıl rayon təhsil işçilərinin sentyabr konfransının plenar müşavirəsi keçirilib.

Müşavirədə Təhsil Nazirliyinin baş məsləhətçisi Rövşən Ağayev, Biləsuvar, Salyan, Neftçala və Cəbrayıl təhsil şöbələrinin rəhbərləri və əməkdaşları, ümumi təhsil müəssisələrinin direktorları, müəllimlər iştirak ediblər.

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə Biləsuvar, Salyan, Neftçala və Cəbrayıl rayonlarının təhsil şöbələrinin müdirləri hesabat məruzəsi ilə çıxış ediblər.

Daha sonra Təhsil Nazirliyinin baş məsləhətçisi R.Ağayev "2019-2020-ci dərs ilində yerli təhsili idarəetmə orqanları və ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri qarşısında Təhsil Nazirliyinin müəyyən etdiyi vəzifələr haqqında" geniş məruzə ilə çıxış edib.

Təqdim edilən hesabatlar ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, təhsil işçilərinin sentyabr konfransları Təhsil naziri Ceyhun Bayramovun müvafiq əmrinə əsasən keçirilir. Təhsil işçilərinin sentyabr konfransları plenar müşavirə və metodiki bölmə iclaslarından ibarət olmaqla 2 gün ərzində keçiriləcək. Plenar müşavirələr 2-6 sentyabr 2019-cu il tarixlərində təşkil ediləcək. Plenar müşavirələrin zonalar üzrə keçirilməsi məqsədəmüvafiq hesab olunub.

Metodik bölmə iclasları hər bir zona üzrə plenar müşavirə başa çatdıqdan sonra yerli təhsili idarəetmə orqanlarının müəyyən etdiyi tarixdə təşkil olunacaq və sentyabrın 10-dək başa çatacaq.